6. Vulkan oyanırsa...

İnsan hissləri sakit, durğun mühitdə yatmış vulkana bənzəyir. Nə qədər ki, bu vulkan oyanmayıb, insan üçün həyat təbii axarında olur və ona öz mühitində heç nə qeyri-adi görünmür. Belə vəziyyətdə o özünün gündəlik həyatını yaşayır. Suyunu içir, havasını udur, yeməyini yeyir, istirahətini öz zövqünə uyğun keçirir. Bir sözlə, hər hansı bir normal insanın yaşadığı həyatı öz ömrü üçün qanuni haqqı bilir.

Amma elə ki, insan mənəviyyatı hansısa bir səbəbdən psixoloji təkana məruz qalır, onun mühitindəki həmin ana qədər yaşanan harmoniya dağılır. Əgər belə demək mümkünsə, insan həyatının ahəngdarlığı itir. Yer üzərində zəlzələlər necə təkanlar yaradırsa, hətta bəzən dağı dərəyə, dərəni dağa çevirirsə, insan mənəviyyatına sarsıntılarla təsir göstərən psixoloji təkan da insan düşüncəsində belə dəyişilmələrə səbəb olur.

Ulduz Qasımın *"Tələbə gündəliyi"* əsərində belə bir mənəvi-psixoloji sarsıntı, klassik təbirlə desək, əsərin qəhrəmanı Sitarənin məhəbbət bəlasına düçar olması ilə başlanır.

Görünür, hər bir insan müəyyən həddə qədər davamlılıq gücünə malikdir.

Repressiyalar dövründə insanı fiziki cəzaya məruz qoyaraq onu əzabların son həddinə qədər fiziki məngənə içərisində sıxaraq sındırırdılar. Həyatı kifayət qədər bilən zəkalı, ziyalı adamlar bu fiziki sarsıntıların qarşısında davam gətirə bilmirdi. Nəhayət, fiziki təzyiqlərdən, döyülmüş, əzilmiş, demək olar ki, normal düşüncədən məhrum edilmiş hər kəsin qabağına bir parça kağız qoyulurdu və ona məcbur edilirdi ki, diktə olunana imza atsın. Belə vəziyyətdə insanın iradəsinin ziddinə olaraq hər hansı bir diktə olunan mətnə imza atmasını təbii qəbul etmək lazımdır, çünki insanın bundan o yana dözüm imkanı yoxdur.

Amma digər psixoloji təkanlar bir qədər fərqlidir. Burada da insanın iradəsi sarsılır, onun gündəlik həyat rejimi pozulur. Bu, xüsusilə insanın ruhuna, varlığına bir axın kimi, sel kimi daxil olan sevgi hissləri ilə daha çox bağlıdır.

Sevgi icazəli deyil, o kimsədən razılıq almır. Qəfil başlayan külək kimi insanın ruhunda, varlığında smerç yaradır. Dayanıqlı olan nə varsa, hamısı bu küləyin qarşısında sovrulub gedir. Artıq sevgi ilə nəfəs alan insan övladı bütün düşüncəsi ilə bu hisslərin əsirinə çevrilir.

Azərbaycan ədəbiyyatında güclü sevgi motivlərini tərənnüm edən, sevginin ecazkar aləmini təcəssüm etdirən obrazlar yaradılıb. Cəfər Cabbarlının *"Vəfalı Səriyyə"*si, ümumiyyətlə Cəfər Cabbarlının bir çox qadın və kişi qəhrəmanları, Səməd Vurğunun "Cəlal"ı və *"Humay"*ı, İlyas Əfəndiyevin romanlarının qəhrəmanları, Süleyman Rəhimovun, Mirzə İbrahimovun və bir çox başqalarının yaratdığı obrazlar sevginin dərin qatlarına enmənin ən bariz nümunələridir. Ancaq Ulduz Qasımın *"Tələbə gündəliyi"*ndəki Sitarə obrazı psixoloji sarsıntıları ilə, demək olar ki, çox nadir nümunələrdən biridir. Onun gözləmədiyi halda qəlbinin qapısını döyən sevgi dalğası bütün barıları yıxıb-uçurur, maneələri dağıdır. O hara getsə, harada olsa, dəxli yoxdur, bütün məqamlarda, hətta ilk baxışdan da qabaq belə vurulmuş olduğu gənci dörd gözlə axtarır: *"Avtobusda, küçədə yol gedən adamlara baxaraq düşünürdüm, deyirdim bu adamlar hara gedirlər? Niyə o yoxdur bu adamların arasında? Elə bilirdim hər yerdən, hər tərəfdən onun ətri gəlir. Elə bilirdim onun bu ətri gəlməsə, havam çatışmaz, boğularam, həyat boşalar, kimsəziləşər, heç olar, dünya öz ətrini itirər. Hər yerdə, hər kəsdə onu gəzirdi gözüm. Amma onu ancaq lap çox görmək istəyəndə görə bilirdim. Atamın sözü düşürdü yadıma. "Saçı uzun qızım, gözü gözəl qızım, ürəyi düz qızım, təmiz qızım. Həmişə ürəyin nə istəsə, çatacaqsan ona, çünki ürəyin düzdür sənin". Doğrudanmı istəyimə çatacam? Doğrudanmı?...".* Göründüyü kimi, o artıq bütün ruhunu, varlığını sevgisinə təslim edib.

Doğrudur, Sitarə əsər boyu yalnız düşüncələrlə yaşamır. Müəyyən məqamlarda az da olsa, o, sevdiyi oğlanın canlı təmasını da hiss edir. Yəni onunla qısa müddətə də olsa, söhbət edə bilir. Telefonda danışır. Bir neçə gün görməyəndə əllə də görüşür. Onun verdiyi hər hansı bir sualın əhatə dairəsi haqqında fikir yürüdür.

Sitarə açıq təbiətli qızdır. O, belə bir ənənəni öz münasibəti ilə dağıdır ki, sevgisini ancaq oğlan etiraf etməlidir,

qız isə bu etirafa cavab verməlidir. Sitarə məhz bunun əksinə gedir. O, sevgisini bütün təbiəti ilə varlığına qəbul etdiyi müğənniyə açır. Bu etirafın qarşısında müğənninin təmkini pozulmur. Bəlkə də Sitarəyə elə gələrdi ki, etirafından sonra yer-göy yerini dəyişəcək. Hərəkətin nizamı başqa cür qurulacaq. Amma belə olmur. Gənc müğənni fikirli-fikirli ondan ayrılıb gedir, təzədən görüşəndə isə onun fikirlərində qəti olub-olmadığını soruşur.

Əlbəttə, bu cür münasibət ruhən incidir. Onu sıxan iztirablar daha da gərginləşir, sərtləşir. Amma hər halda bu məqamdan da özünə təskinlik yolu tapır. *"Demək, mənim haqqımda fikirləşir"*. Hər halda həmin gənc də, nisbətən soyuq, sakit əhvalda gələcəyin daha yaxşı olacağını deyir. Bəlkə də kimdənsə ötrü bu soyuq bir cavabdır. Gələcəyi olmayan həyata bir işarədir. Amma Sitarə üçün bu cavabın xüsusi dəyəri var. Sitarə sevdiyinə o qədər inanır ki, hətta bu soyuq cavabın özündən də istilik alır. Axı onun inandığı adam deyir bu sözləri. Əgər o gələcəyə inanırsa, demək, Sitarə də inanmalıdır.

İlk sevgi dalğasının Sitarənin könül qapısını döydüyü vaxtdan çox keçməyib. Bəlkə də heç 3 həftə də ötməyib. Amma bu az günlərin içərisində Sitarə düşüncələri ilə milyon km-lik yol qət edib. Onun iztirablı duyğuları ayağının ucundan tutumuş lap saçının ucuna qədər onu sarsıdıb. Gecələri yatmır, bütün həyatını yalnız onunla birgə təsəvvür edir. Onunla bir otaqda yaşayan kirayənişin qız onun qəlbinin yeganə simsarıdır. Sitarənin hansı əzabları çəkdiyini yaxşı görür.

Hər halda gənc müğənni də Sitarəyə tam biganə deyil. Hətta onu konsertə də dəvət edir. Sitarə ilə bir otaqda qalan kirayənişin qızın dediyi kimi beləcə tilsim qismən də olsa, qırılır. Hətta konsertdən qayıdanda gənc müğənni Sitarəyə onun qaldığı yerə baş çəkmək istədiyini bildirəndə o buna etiraz eləmir: *"Qayıdanda yaşadığım mənzili görmək istədi. "Ancaq bir stəkan çay içib gedəcəm" - dedi. Onun heç bir istəyinə qarşı çıxa bilmirdim, bacarmırdım, bir də inanırdım ona. Çox, özümdən çox. Həmişə özümdən yüksəkdə tuturdum onu. O da özünü layiqli aparırdı. Heç bir artıq-əksik hərəkət etmirdi. Heç bir yersiz söz danışmırdı. Otaq yoldaşım evdə olduqdan sonra heç bunları düşünməyə dəyməzdi, məncə"*. Tam real qənaətlərdir. Demək, Sitarə həmin gənc müğənniyə o qədər inanır ki, onun həyatını məhv edəcək hər hansı bir qəbulolunmaz təşəbbüsdə olmayacağını bilir. Onu də qeyd etmək lazımdır ki, hətta həmin gənc müğənni hər hansı bir fikrə düşsə belə, Sitarənin onun qarşısını almaq iqtidarında da deyil. Ən azı ona görə Sitarə ona inanır və özünü ona təslim etməkdən heç vaxt peşmançılıq çəkməyəcəyinin də inamını yaşayır. Sitarənin sevgi romanı hamar yolla getmir. Sevgi hissləri ilə nə qədər alışıb-yansa da, gənc müğənninin təmkinli davranışları, hətta bəzən Sitarənin həddini aşa bilən hisslərinə qarşı belə soyuqluğa bənzər təmkinli münasibəti də Sitarədə acı təəssüflər doğurur. Sitarə inana bilmir ki, qarşısında sevgi ocağında alışıb-yanan bir qızı görən şəxs əgər heç olmasa bu sevginin yarısı qədər iztirablı duyğular yaşasaydı, o bu qədər sakit və təmkinli ola bilməzdi.

Sitarə onunla sevgi romanının başlanmasından gələn yolun günlərini, saatlarını, dəqiqələrini belə hesablayır. Biz münasibətlərin Sitarənin ruhunda dərinləşdiyini, gənc müğənninin təbiətində isə sakit və axarla davam etdiyini görürük. Sitarə təklikdə olanda düşünür ki, bütün həyatı boyu ömrünü sevgilisinin istəyincə yaşamağa razı olar. Hətta ömründə bircə dəfə gülmə desə, gülməz.- Bir sözlə, bütün həyatı məhrumiyyətlərdən ibarət olsa, kasıbçılıqla keçsə belə, bütün bunların hamısına dözər, davam gətirər, təki onun həyatı öz sevgilisi ilə birgə keçsin.

Sitarə öz düşüncələrində bəzən o qədər yüksək həddə çatır ki, sanki oxucu onun bir sapdan asılı olduğunu düşünür. Elə bil ki, cüzi bir titrəyişdən bu sap qırılacaq və Sitarə əbədi bir qaranlığa düşəcək. Sitarə öz düşüncələrində özünü mühakimə etməkdən çəkinmir və bəzən sevgilisini də mühakimədən çəkinmir. Onun düşüncələrinin mərkəzində olum və ölüm qarşılaşması açıq-aydın duyulur: *"Bəlkə də bu ən kövrək günümün ən kövrək düşüncəsidir. Bəlkə də bundan da ağır gün gözləyir məni. Bilmirəm... Bu ola bilməzdi, bu ola bilməzdi ki, dünyadan hamıdan mərd sandığım bu adam məni öldürsün, birdəfəlik, ömürlük. Dirigözlü öldürsün. Əgər doğrudan da o mənə hörmət edirsə, niyə məni öldürür, niyə köməyini məndən əsirgəyir? Əgər o məndən belə bir gündə kömək istəsəydi, ölümə də gedərdim onunla, təki o yaşayaydı. Onda rahat olardım ki, heç olmasa, bu dünyada kimsə yaşadıram, kimsə gərəyəm, kimsə köməyəm. Bəs məhəbbət nədir? İnsana hörmət və qayğı deyilmi?"*. Beləcə, psixoloji düşüncələrin getdikcə tarıma çəkilməsi Sitarəni bitib-tükənməyən suallar qarşısında qoyur. O, iztirabları ilə, çəkdiyi əzablarla bu suallara cavab verməyə çalışır. O, bütün hallarda - ruhunda, varlığında daşıdığı iztirablardan zövq alır. Yaşamağın dəyərini, həyatının mənasını bu iztirablarda görür. Ən başlıcası, ona görə sevdiyinə inanır, ən çətin məqamda belə qapısını döyəcəyi bir könül evi olduğuna onun bitib-tükənməyən sonsuz bir inamı var.

Əsərdən göründüyü kimi Sitarə jurnalistdir. Romantik əhvallı bir qızdır. Onun düşüncələri başdan-başa lirika ilə süslənib. Sevgi hisslərini, duyğularını belə qafiyəyə salmasa da, səssiz, kimsəyə demədən öz ürəyində bu hissləri poeziyaya çevirir.

Poeziya klassiklərin dediyi kimi səssiz hisslərin musiqisidir. O, bu musiqini varlığında ardıcıl olaraq dinləyir və elə bu musiqi ilə də nəfəs alır. Amma hər halda onun ruhuna, varlığına sevgisi ilə daxil olan yeni duyğular axını poetik ovqatda da üzə çıxır:

"Gecədən qopartdığım yuxularımı,
Sənli, sənsiz duyğularımı,
Bir də, bir də hamıdan, özümdən də,
Gizlətmək istədiyim göz yaşlarımı
Büküb göndərdim ki, sənə biləsən.
Yenə də o üzücü təklik sənin dünyanı,
Qurd kimi gəmirir, səssizlik, sənsizlik...

Bu axşam sənsizəm, sənsizəm yaman,
Üşüdür qəlbimi payız küləyi.
Sənsizlik beləymiş, bilmirdim aman,
Sənsiz istəmirəm görəm heç nəyi.
Yox, dözə bilmirəm, sənsizliyinə
Sənsiz həmdəmimdir bu yollar mənim.
Ya qayıt, vida qoy bu sənsizliyə,
Ya da ürəyimi gəl qopar mənim".

Beləliklə, bu poetik ovqat Sitarənin sanki ozana çevrildiyinə şahidlik edir. O, öz sevgisini nəğməyə çevirmək, bu nəğməni bezmədən-usanmadan hamıya oxumaq istəyir. Ümumiyyətlə, sevgi nəğmələri sevən qəlbin üzü küləyə oxunan nəğmələridir. Axı külək insanın səsini qaytarıb içinə doldurur, varlığına hopdurur. Mahiyyətcə bu da o deməkdir ki, sevgi nəğmələri əslində elə sevənin öz daxili dünyasının səsidir.

Axı biz dedik ki, Sitarə sevgi tarixçəsini bütün anları ilə izləyir. Artıq onun sevgi tarixinin zaman baxımından bir aylıq yaşı var. Bu yaş isə zaman baxımından bir aylıq olsa da, mənəvi baxımdan Sitarə üçün milyon illik bir məsafəyə bərabərdir.

Bütün hallarda Sitarə ölüm üçün çarpışmır. Mübarizə üçün çarpışır, yaşamaq üçün çarpışır, əslində öz sevgisinin müdafiəsinə qalxır. Sevgisinin nəyə qadir olduğunu, sevgisinin hansı mükafata layiq olduğunu görmək istəyi ilə yaşayır. O, mənəvi mühitini, sərhədlərini cəmiyyət üçün bağlı saxlayır, kimə gəldi, necə gəldi, heç nəyi danışmır.

Sitarə onu tanıyanların nəzərində şəxsiyyətdir, özünə hörmət qoyandır. Başqaları onu hamıdan yüksək, ləyaqətli hesab edir. Onun xarakter bütövlüyü baxımından təkraredilməzliyini təsdiqləyirlər.

Ancaq Sitarə bir insan kimi nə qədər zahirən özünə hörmət edən qapalı olsa da, daxili aləmində kövrəkdir, duyğuludur. Onu düşdüyü vəziyyətdən istifadə ilə bədbəxt günə də qoymaq olar. Amma o dərəcədə zəif deyil ki, sevib-seçdiyi insan o səviyyədə alçala bilsin. Yəni Sitarə özü hansı ucalıqdadırsa, sevgilisini də həmin ucalıqda görür. Əsər boyu biz gənc müğənninin də mənəvi bütövlüyünün şahidi oluruq.

Daxili-psixoloji təkan yatmış vulkanı oyadıb. Vulkan isə oyananda hətta dağıdıcı güc olduğunu da göstərə bilir. Hələ ki, vulkanın sakit uğultuları eşidilir.

21.06.2022